# Aparılası seçki qutusunu daşıyan komissiya üzvlərinin funksiyaları

- Aparılası seçki qutusunun vasitəsilə səsvermə seçkilər günü saat 09:00-da başlayır və saat 19:00-da bitir.
- Səsvermə günü saat 9:00-da komissiyasının sədri sizə təhvil verməlidir:
  - ✓ Aparılası seçki qutusunun siyahısını;
  - ✓ Seçicilərin qeydiyyatçısı tərəfindən imzalanmış və qeydiyyatçının möhürü ilə təsdiq edilmiş lazımi sayda müvafiq növdə seçki bülletenlərini;
  - ✓ Xüsusi zərfləri (aparılası seçki qutusunun siyahısında mövcud olan seçicilərə uyğun olaraq);
  - ✓ Yoxlama vərəqəsi yerləşdirilən möhürlənmiş aparılası seçki qutusunu;
  - ✓ Aparılası seçki qutusunun kəsiyini möhürləyən möhür (aparılası seçki qutusu aparılası seçki qutusunun köməyilə səsvermə bitdikdən sonra möhürlənir).

**DİQQƏT!**
Aparılası seçki qutunu aparan Məntəqə Seçki Komissiyasının üzvləri aparılası seçki qutu ilə səsvermə prosessində maska, qoruyucu üz sipəri, əlcəklər və əlin dezinfeksiya edici məhlulla təchiz olunmalıdırlar.

- Seçiciyə yaxınlaşan kimi ondan Gürcüstan vətəndaşlığını təsdiq edən şəxsiyyət vəsiqəsini və yaxud Gürcüstan vətəndaşlığı pasportunun təqdim olunmasını xahiş edin.
- Seçicinin şəxsi nömrəsini aparılası seçki qutusunun siyahısında mövcud olan şəxsi nömrə ilə müqayisə edin.
- Təqdim olunan şəxsiyyətini təsdiq edən sənədlərdə qeyd olunan seçicinin qeydiyyat məlumatlarını və aparılası seçki qutusunun siyahısında olan məlumatların uyğunluğunu yoxlayın.

**DİQQƏT!**
Əgər seçicilərin müvafiq siyahısında Gürcüstan vətəndaşının şəxsi nömrəsi və cinsiilə birlikdə siyahıda olan məlumatlarla üçü tam uyğun gəlirsə (adı, soyadı, doğum tarixi, ünvanı) seçici seçkilərdə iştirak edir.

- Aparılası seçki qutusunun siyahısında öz imzanızla seçki bülleteni/bülletenlərinin verilməsini təsdiq edin.
- Seçicidən xahiş edin ki, aparılası seçki qutusunun siyahısında öz soyadının qarşısında seçki bülleteni/bülletenlərinin almasını öz imzası ilə təsdiq etsin.

**DİQQƏT!**
Əgər səsvermə prosesində bəlli olsa ki, seçici seçki siyahısında digər seçicinin soyadının qrafasında imza atıb, bu zaman seçici soyadının ardınca həmin qrafada imza atmalı. Qeyd olunan haqqında izahat yazın (seçicinin adını, soyadını və vahid siyahısında sıra nömrəsini qeyd etməklə).

- Seçiciyə qeydiyyatçının imzası və möhürü ilə təsdiq olunmuş seçki bülleteni/bülletenlərini verin.
- Seçici tərəfindən bülleten/bülletenlər doldurulduqdan sonra ona xüsusi zərf verin və göstərin ki, qatlanmış seçki bülletenlərini onda yerləşdirsin.
- Seçicidən xahiş edin ki, xüsusi zərfi aparılan seçki qutusuna salsın.
- Səsvermə başa çatdırıldıqdan sonra aparılası seçki qutusunun kəsiyini elə möhürləyin ki, möhürü zədələmədən onu açmaq mümkün olmasın.
- Aparılası seçki qutusunu saat 20:00-dan gec olmayaraq seçki məntəqəsinə qaytarın.
- Səsvermə binasına qayıtdıqdan sonra Məntəqə seçki komissiyasının katibinə istifadə olunmamış/korlanmış seçki bülletenləri, xüsusi zərfləri və komissiya üzvlərinin izahatlarını təhvil verin (mövcud olduğu halda).

## Nəzərə alın!

✓ Aparılası seçki qutusu vasitəsi ilə səsvermədə iştirak edən seçiciyə markirovka tətbiq olunmur.

✓ Fiziki vəziyyətinə görə seçici tərəfindən aparılası seçki qutusu vasitəsilə səs verildiyi təqdirdə, aparılası seçki qutusu siyahısının "Seçicinin imzası" qrafasında –aparılası seçki qutusunu daşıyan komissiya üzvü "Fiziki vəziyyət" adlı qeyd yazır və bunu şəxsi imzası ilə təsdiq edir.

✓ Fiziki vəziyyətinə görə seçicinin (həmçinin seçki bülletenini sərbəst doldura bilmədikdə) yerinə onun seçdiyi şəxs onun yanında seçki bülletenini doldurur, xüsusi zərfə yerləşdirir və zərfi seçki qutusuna atır (o, seçki komissiyasının üzvü, namizəd, seçki subiyektinin nümayəndəsi, pressa və digər kütləvi informasiya vasitələrinin nümayəndələri və müşahidəçilərindən başqa).

✓ Əgər aparılası seçki qutusunun möhürünün bütövlüyü pozularsa, bu barədə dərhal komissiya sədrinə bildirin, səbəbi göstərməklə izahat tərtib edin və yanında olan şəxslərə imzalatdırın.